*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır     6 yanvar 2016-cı il № 1 (2016)     Qiyməti 25 qəpik


# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki



- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2015-ci il arxada qalır. 2015-ci ildə yaşadığımız regionda iqtisadi, siyasi, hərbi böhran daha da dərinləşdi, risklər artdı, təhlükələr artdı, yeni çağırışlar meydana gəldi.

Bütün bunlara baxmayaraq, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Bizim əsas vəzifəmiz ondan ibarət idi ki, Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edək, ölkəmizin dinamik inkişafına nail olaq. Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır və yaşayacaqdır. Eyni zamanda, 2015-ci ildə neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, üç dəfə aşağı düşmüşdür. Bunu ilin əvvəlində təsəvvür etmək mümkün deyildi. Ancaq bu, reallıqdır və yenə də Azərbaycanda aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində iqtisadi artım təmin edildi, Azərbaycanda qeyri-neft sektoru inkişaf etdi. Xüsusilə qeyri-neft sənayesinin 7 faizdən çox artması məni xüsusən sevindirir. Bu, onu göstərir ki, əvvəlki illərdə apardığımız siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır və neftdən asılılığımız getdikcə daha da azalacaq.

Ancaq təbii ki, bizim gəlirlərimiz kəskin şəkildə azalmışdır, milli valyutamız manat devalvasiyaya uğradı. Ancaq yenə də biz çalışırdıq, çalışırıq və çalışacağıq ki, bu vəziyyət insanların yaşayış səviyyəsinə təsir etməsin. Xüsusilə istehlak qiymətlərinin sabit saxlanması bizim əsas vəzifəmizdir.

Bu il "Kənd təsərrüfatı" ilidir. Şadam ki, kənd təsərrüfatı təxminən 7 faiz artmışdır. Bütövlükdə götürəndə bizim iqtisadi sahədə apardığımız siyasət mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 40-cı yerdədir. Bu, böyük və tarixi nailiyyətdir. Bu, onu göstərir ki, biz düzgün siyasət aparırıq və gələcəkdə, əlbəttə, Azərbaycan xalqının maraqlarını daim təmin edəcəyik.

Azərbaycanda sosial məsələlər öz həllini tapır. Baxmayaraq ki, gəlirlərimiz kəskin şəkildə azalmışdır, bir dənə də olsun sosial proqram təxirə salınmadı. Bütün sosial layihələrimiz icra edilmişdir. Bu da siyasətimizin mahiyyətini, yəni, mənasını göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz güclü dövlət qururuq, güclü iqtisadiyyat qururuq, eyni zamanda, insanların rifahı bizim üçün həmişə prioritet məsələ olubdur və olacaqdır.

2015-ci ildə ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. Mənim xarici səfərlərim, xarici dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunu bir daha təsdiqləyir. 2015-ci ildə rəsmi səfərlərdə və beynəlxalq tədbirlərdə iştirak etmək üçün müxtəlif ölkələrdə olmuşam, 20 xarici səfər həyata keçirmişəm və bu il Azərbaycanda 15 dövlət və hökumət başçısı rəsmi və qeyri-rəsmi səfərlərdə olmuşlar.

Eyni zamanda, bizim apardığımız xarici siyasət dünya birliyi tərəfindən yüksək qiymətləndirilir, rəğbətlə qarşılanır. Çünki biz müstəqil siyasət aparırıq. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz vardır. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir. Bizə qarşı olan təzyiqlər, hədə-qorxular bizim siyasətimizə zərrə qədər təsir etmir və etməyəcək. Biz heç kimdən və heç nədən qorxmuruq. Bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir və ölkəmizin beynəlxalq nüfuzunu qaldırmaqdır.

Sizi əmin edirəm ki, 2016-cı ildə də və bundan sonrakı illərdə də Azərbaycan prinsipial siyasətdən dönməyəcək, müstəqil siyasət aparacaq və bizə qarşı kampaniya aparmaq istəyənlər bunu nəzərə alsınlar. Onların səyləri əbəsdir, bizim siyasətimizə təsir etmir və heç vaxt etməyəcəkdir.

Xarici siyasətimizin əsas prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, 2015-ci ildə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi xalq üçün aydındır. Ermənistan sülh istəmir. Münaqişəni uzatmaq istəyirlər, vaxt udmaq istəyirlər. Danışıqlarda özlərini qeyri-səmimi aparırlar və müxtəlif bəhanələrlə çalışırlar ki, bu danışıqlar prosesi daim davam etsin.

Bizim siyasətimiz bundan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçılar işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır və Azərbaycan vətəndaşları doğma torpaqlara qayıtmalıdırlar.

Münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr münaqişənin həlli üçün əsas sənəddir və bu məsələ məhz bu çərçivədə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaransın. Dağlıq Qarabağın müstəqilliyini heç vaxt heç kim qəbul etməyəcək. Biz çalışacağıq ki, həm siyasi, diplomatik, həm iqtisadi və digər vasitələrlə ərazi bütövlüyümüzü bərpa edək. Haqq-ədalət bizim tərəfimizdədir, siyasi və iqtisadi güc bizim mövqeyimizi dəstəkləyir, gücləndirir. Əminəm ki, biz istədiyimizə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Buna nail olmaq üçün, əlbəttə ki, diplomatik səylərlə yanaşı, güclü hərbi potensial olmalıdır və biz bunu yaradırıq. Artıq Azərbaycan xalqı da görür ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

2015-ci ildə düşmənin bütün təxribatlarına tutarlı cavab verilmişdir. Düşmənə sarsıdıcı zərbələr endirilmişdir və döyüş meydanında yaranmış vəziyyət bir daha bizim üstünlüyümüzü göstərir. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Ancaq öz prinsipial mövqeyimizdən dönməyəcəyik və lazım olarsa hərbi gücdən istifadə etmək bizim suveren hüququmuzdur.

2015-ci ildə də məcburi köçkünlərin problemləri öz həllini tapıb. Hər il minlərlə köçkün yeni evlərə, mənzillərə köçürülür. Bu siyasət gələn il də davam etdiriləcəkdir.

2015-ci ildə enerji sahəsində önəmli addımlar atılmışdır. TANAP layihəsinin icrası başlamışdır. Artıq TANAP layihəsinin həyata keçirilməsi reallıqdır. Burada Azərbaycan tərəfdaş ölkələrlə çox mühüm rol oynayır, böyük işlər aparır. TANAP layihəsinin əsas səhmdarı və əsas investoru Azərbaycandır. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı bundan sonra onilliklər ərzində dünya bazarlarına çatdıraq və beləliklə, ölkəmizin siyasi və iqtisadi maraqlarını daha dolğun şəkildə təmin edək.

Bu il nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı çox ciddi işlər aparılmışdır. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallaşır. Çindən, Orta Asiyadan Azərbaycana, Azərbaycandan Gürcüstan, Türkiyə vasitəsilə Avropaya uzanan yeni "İpək Yolu" layihəsi reallaşır və burada Azərbaycanın rolu kifayət qədər önəmlidir. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması üçün Azərbaycan konkret addımlar atır. Əminəm ki, bu layihə də uğurla reallaşacaq və beləliklə, bundan sonra - bu iki mühüm layihə reallaşandan sonra Azərbaycan dünya miqyasında əvəzolunmaz tranzit ölkəsinə çevriləcəkdir. Bu, nə deməkdir, bunu izah etməyə ehtiyac yoxdur.

Bu il tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan burada da öz gücünü göstərdi. Altı mindən çox idmançı, minlərlə qonaq ölkəmizə gəlmişdir və ölkəmizin reallıqları ilə özləri tanış ola bilmişdir. Avropa Oyunları Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Avropa Oyunları Azərbaycan dövlətinin təntənəsidir. Eyni zamanda, Azərbaycan idmanının təntənəsidir. Çünki bizim idmançılarımız, milli komandamız 56 medal qazanaraq, - onlardan 21-i qızıl medaldır, - komanda hesabında ikinci yerə layiq görülmüşdür. Bu, doğrudan da, ölkəmizin böyük zəfəridir və hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, biz bu uğura imza ata bilmişik.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin inkişafı üçün çox önəmli hadisə idi. Parlament seçkiləri şəffaf, ədalətli keçirilmişdir. Bütün beynəlxalq müşahidəçilər bunu qeyd etmişlər. Azərbaycan xalqının iradəsi öz əksini tapmışdır. Parlament seçkilərinin nəticələri xalq tərəfindən bizim siyasətimizə verilən yüksək qiymətin təzahürüdür. Mən bunu belə qəbul edirəm.

Azərbaycan demokratiya yolu ilə gedir, inkişaf yolu ilə gedir və bu, bizim şüurlu seçimimizdir. Xalq-iqtidar birliyi, milli həmrəylik bu gün ən yüksək səviyyədədir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Fürsətdən istifadə edərək dünyada yaşayan bütün azərbaycanlıları salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar və Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları bilirlər ki, bu gün Azərbaycan müstəqillik və inkişaf yolu ilə uğurla gedir. Bu gün müstəqil Azərbaycan güclü dövlətdir. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, dövlətimizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı həyatını təmin edək.

Mən bütün Azərbaycan vətəndaşlarını, dünya azərbaycanlılarını Dünya Azərbaycanlarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

## Prezident İlham Əliyev: Azərbaycan xalqının maraqları mənim üçün hər şeydən üstündür

Prezident İlham Əliyev dekabrın 30-da Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın açılışı zamanı Xəzər rayonunun və Zirə qəsəbəsinin bir qrup sakini ilə görüşdə 2016-cı ildə Azərbaycan iqtisadiyyatının inkişaf edəcəyini, heç bir sosial proqramın icrası ilə bağlı problemin olmayacağını bildirib. "Biz daha da ciddi sosial siyasət aparacağıq və çalışacağıq ki, daha çox xarici sərmayəni cəlb edək, israfçılığa yol verməyək", - deyən dövlətimizin başçısı idarəetmə sistemində xoşagəlməz halların aradan qaldırılması işində daha da fəal işlərin görüləcəyini vurğulayıb.

Prezident İlham Əliyev bildirib: "Azərbaycan inamla inkişaf edəcək. Biz inkişaf yolu ilə, müstəqillik yolu ilə gedirik, müstəqil siyasət aparırıq. Ona görə bəzi hallarda əsassız təzyiqlərə məruz qalırıq. Ancaq biz ləyaqətli siyasət aparırıq. Azərbaycan xalqının maraqları mənim üçün hər şeydən üstündür və mən bundan sonra da bu maraqları müdafiə edəcəyəm. Mən xalqın dəstəyini hiss edərək bu işləri daha da inamla aparıram".

**AZƏRTAC**

## Növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb

***Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, 2016-cı il yanvarın 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.***

AZƏRTAC xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.

Sərəncama əsasən, 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Həmin sənədə uyğun olaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2016-cı il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Qeyd edək ki, Prezident İlham Əliyev 2015-ci il dekabrın 5-də Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

## 20 Yanvar faciəsinin 26-cı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib

***Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin 26-cı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.***

AZƏRTAC xəbər verir ki, sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs aparılacaq, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

# Müdafiə naziri Gəncədə yerləşən hərbi hissədə "Açıq qapı" günündə iştirak edib



***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən, Silahlı Qüvvələrdə "Açıq qapı" gününün keçirilməsi artıq ənənəyə çevrilib. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində keçirilən "Açıq qapı" günü də xalqla ordunun birliyinin təzahürü oldu.***

"N" hərbi hissəsində keçirilən belə tədbirdə respublikamızın müxtəlif guşələrindən gəlmiş əsgər valideynləri, müharibə və əmək veteranları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əlamətdar gün münasibəti ilə hərbi hissəyə gələn Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, millət vəkilləri öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü önünə əklil qoydular.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov əsgər valideynləri, müharibə və əmək veteranları, ictimaiyyət nümayəndələri ilə görüşdü. Bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimiz inkişaf edib, monolit qüvvəyə çevrilib. Əsgər və zabitlərimizin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər uğurla davam etdirilir. Bayramlar ərəfəsində müasir tələblərə cavab verən hərbi şəhərciklər istifadəyə verilib. Əsgər və zabitlərimizin nümunəvi xidməti üçün hərtərəfli şərait yaradılıb. Məqsədimiz budur ki, ölkə rəhbərliyinin və xalqımızın bizə göstərdiyi yüksək etimadı doğruldaq, işğal altında olan Vətən torpaqlarını azad edək.



Əsgər valideynləri ilə səmimi söhbət edən Müdafiə naziri onları maraqlandıran sualları cavablandırdı.

Qeyd etdi ki, əsgər valideynləri, ictimaiyyət nümayəndələri onları narahat edən məsələlər, problemlər mövcuddursa, bizə istədikləri vaxt müraciət edə bilərlər.

Şəki rayonundan gəlmiş əsgər atası Nağı Tağıyev ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərini qeyd etməklə, ordu quruculuğuna böyük diqqət yetirildiyini bildirdi. "Bu gün keçirilən "Açıq qapı" günü də göstərilən diqqət və qayğının təzahürüdür. Əsgər və zabitlərimizə göstərilən qayğı bir valideyn kimi də məni qürurlandırır. Qürur hissi keçirirəm ki, bu gün oğlum Yadigarlı Tural da etibarlı Vətən müdafiəçiləri sırasındadır", - deyə valideyn bildirdi.

Milli Məclisin deputatı Xanhüseyn Kazımlı son illər həyata keçirilən tədbirlərin Vətənimiz və xalqımız üçün qürurverici olduğunu diqqətə çatdırdı. Bildirdi ki, ölkəmizin bütün guşələrində hərbi qulluqçular üçün müasir tələblərə cavab verən, hərbi xidmətin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılıb. "Qətiyyətlə demək olar ki, hərbi qulluqçularımızın vətənpərvərlik hissi, döyüş ruhu çox yüksəkdir. Biz cəbhə bölgələrində dediklərimizin dəfələrlə şahidi olmuşuq. Bu gün bizim üçün həm də unudulmayan, yaddaşlara yazılan bir gündür ki, hərbi qulluqçularla birgə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni il bayramını, "Açıq qapı" gününü birgə qeyd edirik. İnanıram ki, dövlətimizin, ordumuzun və xalqımızın gücü ilə növbəti bayram günlərini Xankəndidə, Şuşada, Kəlbəcərdə, Laçında və müvəqqəti işğalda olan torpaqlarımızda keçirəcəyik", - dedi deputat.



95 yaşlı Gəncə şəhər sakini, Böyük Vətən müharibəsi veteranı Tofiq Hüseynov və əsgər anaları xalqımıza ən böyük arzumuz, istəyimiz olan qələbə sevinci arzuladılar.

Müdafiə naziri tədbir iştirakçılarını əsgərlərin həyat şəraiti ilə yaxından tanış olmaq üçün əsgər yataqxanalarına, idman meydançasına və yeməkxanaya dəvət etdi. Valideynlər, ictimaiyyət nümayəndələri idman meydançasına gələrək əsgərlərin fiziki hazırlıq məşğələsində müxtəlif idman tapşırıqlarını izlədilər. Nazir onlarla birgə əsgər yataqxanalarına, istirahət otaqlarına baş çəkib. Valideynlər yaradılan şəraitə görə ölkə rəhbərliyinə və Müdafiə nazirinə minnətdarlıq ifadə ediblər.




Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev çıxış edərək hərbi qulluqçuları, əsgər valideynlərini bayram günləri münasibəti ilə təbrik edib və onlara qələbələr arzulayıb.

Sonra valideynlər, ictimaiyyət nümayəndələri əsgər yeməkxanasında əsgərlərlə birgə nahara dəvət ediliblər. Azərbaycan Respublikasının xalq artisti Azərinin oxuduğu mahnılar rəğbətlə qarşılanıb.

**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən yeni tikilmiş daha üç hərbi hissənin açılışını edib







***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, yeni tikilmiş və müasir avadalıqlarla tam təchiz edilmiş daha üç hərbi hissənin açılış mərasimləri keçirilib.***

Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada yerləşən hərbi hissələrin açılışında iştirak edərək istifadəyə verilən qərargah, əsgər yataqxanaları, tədris kompleksi, döyüş texnikası üçün saxlanclar, qarovul şəhərciyi, sıra meydanı, tibb məntəqəsi, hamam-camaşırxana-qazanxana kompleksi və digər inzibati obyektlər ilə tanış olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyət qarşısında çıxış edərək bildirib: "Silahlı Qüvvələrimiz daim Ali Baş Komandanımız cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Orduda həyata keçirilən islahatlar bütün istiqamətlər üzrə aparılır, döyüş hazırlığı, şəxsi heyətin sosial-məişət şəraiti diqqət mərkəzində saxlanılır.

Silahlanmada olan bütün silah-sursat, döyüş texnikası, hərbi təyinatlı avadanlıqlar yenilənib və modernizə edilərək hərbi hissələrə çatdırılıb. Əsas diqqət ön xətdə yerləşən bölmələrə, cəbhəboyu zonadakı hərbi hissələrin təminatına və hazırlığına yönəldilib. Bütün bunlar şəxsi heyətin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması məqsədini daşıyır.

İl ərzində bütün istiqamətlərdə düşmənə vurulan zərbələr onu sarsıdıb. Cəbhədə çoxsaylı itkilər verən erməni tərəfi mənəvi-psixoloji cəhətdən ağır vəziyyətə düşüb.

Ordumuz hərbi təlimlərdə, praktiki məşqlərdə, təlim mərkəzləri və poliqonlarda döyüş hazırlığını daim artırır. Silahlı Qüvvələrimizin şəxsi heyəti dövlət rəhbərliyi tərəfindən bizə göstərilən etimadı doğrultmaqla torpaqlarımızın işğaldan azad ediləcəyi günü yaxınlaşdırır", - deyə Müdafiə naziri bildirib.





Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə şəxsi heyəti təbrik edən Müdafiə naziri hərbi qulluqçulara xidmətdə uğurlar arzulayıb.

Şəxsi heyət təntənəli marşla tribuna önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib.

Həmin gün Müdafiə naziri cəbhəboyu zonada yerləşən və tikintisi yekunlaşmaq üzrə olan digər hərbi hissələrdə olub, inşaat işlərinin sürətlə və keyfiyyətli aparılması ilə bağlı tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Xalqla ordunun birliyinin nümayişi

## Hərbi hissələrimizdə "Açıq qapı" günü tədbiri keçirildi

***Dekabrın 31-də Əlahiddə Ümumqoşun Orduda, birlik, birləşmə və hərbi hissələrdə, Hərbi Hava Qüvvələrinin aviabazalarında, Hərbi Dəniz Qüvvələrinin gəmilərində, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində səhər saatlarından başlayan "Açıq qapı" günü tədbirlərində əsgər valideynləri və yaxınları, yerli icra orqanlarının nümayəndələri, müharibə veteranları, rayon ictimaiyyəti və təhsil ocaqlarının təmsilçiləri iştirak ediblər. Bütün şəxsi heyətə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayram təbrikləri çatdırılıb.***



"Açıq qapı" günü tədbirində iştirak edən Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev qonaqları və şəxsi heyəti salamlayaraq onları təbrik edib, cansağlığı, torpaqlarımızın düşmən işğalından azad olunacağı müqəddəs qələbə gününü arzulayıb. Silahlı Qüvvələrdə belə tədbirlərin ordumuz barədə insanlarda xoş təəssürat yaratdığını bildirən nazir müavini çıxışında qeyd edib ki, bu gün hərbi hissələrdə qazanılan nailiyyətlər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında aparılan islahatların təzahürü, orduya göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Sonra qonaqların hərbi hissənin ərazisi, əsgər yataqxanası, şəxsi heyətin məişət şəraiti və hamam-camaşırxana xidməti ilə tanışlığı başlayıb. Ziyarətçilər çöl, səhra şəraitində qida məntəqəsinin açılması, şəxsi heyətin qidalanmasının təşkili və eyni zamanda onların qida rasionuna daxil olan ərzaq nümunələri ilə tanış olublar. Nümayiş etdirilən hərbi texnika və silahlar haqqında ətraflı məlumatlar verilib. Geyim nümunələri, xüsusilə, qış-səhra geyimləri ilə tanışlıq valideynlərdə böyük maraq doğurub. Sıra meydanında və istirahət otaqlarında nümunəvi xidmət edən hərbi qulluqçulara həsr edilən foto guşəyə baxış keçirilib. Məşğələlərin təqdimatında taktiki və fiziki hazırlıq üzrə normativlər, xüsusi şəraitdə döyüş tapşırıqları, əsgər yaradıcılığı nümunələri yerinə yetirilib. Bütün bunları valideynlər dərin maraqla izləyiblər. Sonra valideynlərin hərbi hissə komandanlığı ilə görüşü təşkil olunub. Burada onların sualları cavablandırılıb və hərbi xidmətdə fərqlənmiş əsgərlər fəxri fərmanlarla təltif edilib, həmçinin, nümunəvi əsgərlərin valideynlərinə təşəkkür məktubları verilib. Eyni zamanda ziyarətçilərə hərbi hissədə keçirilən tədbirlərin, o cümlədən Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə Nazirliyi rəhbərliyinin hərbi hissələrə gəlişinin foto şəkilləri və video çəkilişləri nümayiş etdirilib.

"Açıq qapı" günü tədbiri özfəaliyyət qruplarının, rayon mədəniyyət evinin yaradıcı kollektivinin şəxsi heyət və qonaqlar qarşısında əyləncəli çıxışları ilə davam edib. Böyük Oğuz elinin ağsaqqalı Dədə Qorqudun öyüd-nəsihətləri ədəbi bədii kompozisiyanın quruluşunda səsləndirilərək şəxsi heyətə sərkərdəlik, qəhrəmanlıq, döyüş ənənələri aşılayıb.

Daha sonra valideynlər övladları ilə birlikdə hərbi hissənin yeməkxanasında nahar yeməyinə dəvət olunublar. Əsgər yeməkxanasında çalışan baş aşpaz İlhamə Əliyevaya yaxınlaşıb onunla söhbət aparıram. Öyrənirəm ki, şəxsi heyətə ev xörəkləri, dadlı-tamlı milli mətbəximizin nümunələri - yarpaq, kələm dolması, plov, dovğa, çığırtma, cürbəcür ət yeməkləri hazırlanılır, meyvə-tərəvəzə üstünlük verilir.

Aşpazlardan Roza Ağayeva və Kəmalə Babayeva şəxsi heyətə həvəslə xidmət göstərməyi öz vəzifə borclarından başqa mənəvi borc bildiklərini söyləyiblər.

"Açıq qapı" günü tədbirinin sonunda valideynlər hərbi hissə komandanlığı və şəxsi heyətlə birlikdə xatirə şəkli çəkdiriblər.

* * *

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində də "Açıq qapı" mərasimi təntənəli keçirildi. Həmin gün bütün qapılar ictimaiyyətin üzünə açıq idi.

Hərbi hissəyə daxil olanda ərazidə böyük canlanma gördük. İlk olaraq polkovnik-



leytenant Azər Ağayevlə görüşüb bu mühüm tədbirə necə hazırlaşdıqları ilə maraqlandıq. Suallarımızı cavablandıran zabit bildirdi ki, ikinci dəfədir hərbi hissəmizdə "Açıq qapı" mərasimi keçirilir. "Ötən tədbirdə də zabit və əsgərlərimiz fəal iştirak etdilər. Valideynlərin, qonaqların qarşılanması və hərbi hissə ilə tanış olmaları üçün hərtərəfli şərait yaradıldı. Artıq bu sahədə kifayət qədər təcrübəmiz var. Bu mühüm tədbiri keçirmək üçün hərbi hissədə ciddi hazırlıq işləri görülüb".

Mayor Famil Həmidovla birlikdə sıra meydanına gəl-



dik. Hərbi texnikalar meydanın sağ tərəfində bir xətt boyunca yerləşdirilib. Bir tərəfdə isə silahlar, əsgərlərin geyim ləvazimatları, gündəlik istifadə edilən ərzaq çeşidləri stolların üstünə düzülüb.

"Açıq qapı" mərasiminə gələnlər həm silah - texnikalarla, həm də əsgərlərin qida rasionu ilə yaxından tanış oldular. Baş gizir Namiq Məmmədov silah və sursatlar haqqında qonaqlara geniş məlumat verdi.

Leytenant Vüqar Abdulov yeni geyim formalarını tədbir iştirakçılarına təqdim etdi. Qonaqlardan biri Rasim Mehdiyev zirehli jiletə böyük maraq göstərdi. Zabitin köməyi ilə o zirehli jileti əyninə geyindi.

- Özümü əsgər kimi hiss edirəm, - deyə Beyləqan rayon sakini Rasim Mehdiyev bildirdi. - Hərbi hissədə gördüyüm inkişafdan ürəyim açıldı. Hər addımda hiss olunur ki, ordumuz günü-gündən inkişaf edir və güclənir. Həm döyüş texnikalarına, həm silah-sursata, həm geyimə, həm də qida rasionuna diqqətlə baxdıq. Övladımın qüdrətli bir ordunun sıralarında xidmət etməsindən qürur duyuram.

"Açıq qapı" günündə iştirak edən qonaqlardan Mehman Quluyev, Müzəffər Fərəcov, Telman İmanov, Müəllim Əbilov, Sarvan Haciyev, Samir Mirzəyev, Elşən İsmayılov və başqaları da maraqlı təəssüratlarını bizimlə bölüşdülər.

* * *

Havanın şaxtalı və qarlı olması heç kəsin ovqatına xələl gətirmirdi.

Kimisi belə tədbirdə ilk dəfə iştirak etdiyini və hər şeyin möhtəşəm olduğunu qeyd edir, kimisi isə kütləvi informasiya vasitələrindən məlumat aldığını, bu əlamətdar gündə iştirak etmək üçün uzaq yol gəldiyini bildirirdi.

Tədbirdə qonaqlar və əsgər valideynləri qarşısında çıxış edən general-leytenant Rövşən Əkbərov hər kəsi əlamətdar gün münasibəti ilə təbrik edib və bildirib ki, bütün hərbi hissələrdə keçirilən "Açıq qapı" günü valideynlər, əsgərlər və ordu nümayəndələri arasında bir körpüdür. "Belə tədbirdə xalq və ordu sıx əlaqədə olur. Həmçinin, hərbi hissələrimizdə övladlarınız üçün yaradılan şəraitlə yaxından tanış olursunuz", - dedi Milli Qəhrəman Rövşən Əkbərov.

Sonra general-leytenant Eyvaz Cəfərov da öz növbəsində hər kəsi təbrik edib və bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ordumuz günü-gündən inkişaf edir. Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı nəticəsində hərbi hissələrimizdə müasir şərait yaradılır və gənclər belə əlverişli mühitdə Vətənə sədaqətlə xidmət edirlər.

Ziyarətçilər ilkin olaraq şəxsi heyətin yaşayış yeri, hamam-camaşırxana ilə tanış olublar. Əsgər anası Pərvanə Manafova yaradılan şəraitin heyrətamiz olduğunu, övladı sarıdan bundan sonra tam rahat olacağını bildirdi:

- Hər bir ana övladı üçün daim narahatdır. Hərbi xidmətdə olmazdan öncə oğlum Orxan hardasa bir neçə günlük qonaq qalanda belə narahat olardım. Hərbi xidmətə gəldikdən sonra ona narahatlıq olmasından qorxurdum. Şükürlər olsun ki, Müdafiə Nazirliyi gözəl bir gün təşkil edib ki, biz valideynlər tam rahat olaq. Ən əsası sağ olsunlar ki, əsgərlərimizi bu dərəcədə düşünür, belə şərait yaradırlar.

Əsgər atası Abuzər Əhədov da Ali Baş Komandan İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova, bütün ordu nümayəndələrinə təşəkkürünü bildirdi. "Oğlum Orxan həmişə burada çox gözəl şərait yaradıldığını bildirirdi, lakin bu gün gözlərimlə bütün bunların şahidi oldum. Hətta əsgər yeməyindən daddım. Yeməklərin qadınlar tərəfindən hazırlandığını biləndə daha çox sevindim. Axı onların da hər biri anadır, əminəm ki, əsgərləri öz övladlarından seçmirlər".

* * *

Ovqatı digər günlərin ovqatından üstün olduğu üçün el arasında bayram gününə əziz gün deyirlər. Əziz gündə övladlarının əhatəsində olmaq ata-analara həmişə daha fərqli könül xoşluğu verir. Şərait buna imkan verməyəndə necə? Hərbi xidmət əsgərin valideynlərinin bu istəyini Vətən naminə, dövlətçilik naminə müəyyən müddətə təxirə saldığından əziz günlərdə ata-ana özünü ruhən oğlunun yanında hiss eləyir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmri oğlu hərbi xidmətdə olan valideynlərə müqayisəyəgəlməz sevinc verib. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə, ilin sonuncu günündə əsgər oğullarıyla görüşmək imkanı ata-ana istəyinə böyük sayğıdır. Bu imkan əsgərlərin də, valideynlərin də ömrünə yazılan xoş ovqatlı gün olacaq, uzun müddət xatırlanacaq...



Hərbi Dəniz Qüvvələrinə məxsus hərbi hissənin qarşısında gəzişənlərə elə gəlir ki, zaman ləng ötüşür. "Tədbirin təyin olunmuş vaxtda başlayacağını bilsəm də, ürəyim məni ora çəkir. Oğlumun yanına..." - bir ana başqa anaya belə deyir. Əziz günü matros oğluyla nəfəs-nəfəsə yaşamaq istəyi bəşəri duyğudu. İlin sonuncu təqvim günü bu bəşəri duyğunu matros atasına, matros anasına, matros bacısına daha böyük könül xoşluğuyla yaşadacaq.

Son vaxtlar Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatlar xalqın da ordumuza inamını yüksəldib. Bir neçə ay əvvəl Horadizdə keçirilən "Sənə inanırıq, ölkə rəhbəri, Sənə güvənirik, Vətən əsgəri" adlı tədbir hamının fikrini ifadə edirdi.

- Bugünkü tədbir ordusuna inananlara böyük sevinclər yaşadır, - Zaqataladan gəlmiş Şahin Ərəblinski belə deyir. - Hamımız torpaqlarımızın işğaldan azad ediləcəyi günün həsrətindəyik. Kaş oğlum Murad da torpaqlarımızı işğaldan azad edəcək əsgərlərin sırasında olaydı.

Əliylə bir azdan oğlunu bağrına basacaq ataları, anaları göstərir:

- Hamımızın istəyi belədi...

Matros atasının bu istəyini Vətənin istəyi bilirəm. Qürurlanıram, duyğulanıram!..

"Açıq qapı" günü açıq elan edilir.

Birinci dərəcəli kapitan Şahin Məmmədov hamını salamlayaraq Müdafiə nazirinin istər valideynlərə, istərsə də matroslara böyük sevinc bəxş edən əmrinin mahiyyətindən söz açır.

Dəniz piyadalarının nümunəvi çıxışı böyük maraqla izlənilir. İnanılmaz təmrinləri peşəkarlıqla yerinə yetirənlərə tamaşa edənlərin baxışlarında qədərsiz sevgi, dönməz bir inam görünür. Hamı bu oğulların əzminin, iradəsinin, qətiyyətinin, fiziki hazırlığının məqamında od olub düşmənin canına daraşacağına inanır...

Matrosların istifadəsində olan silah-sursatlara baxış da maraq doğurur. Zabitlər valideynlərə bunların istifadə üsulları haqqında müfəssəl məlumatlar verir. Valideynlərdən biri daha diqqətlə dinləyir. Az sonra öyrənəcəm ki, Əli Məmmədovdu, Balakəndən gəlib. O da zamanında bu qoşun növündə xidmət edib. İndi ötənləri xatırlayır. Əli Məmmədov deyir ki, hərbi hissədə yaradılan şəraitlə oğlumun andiçmə mərasimində tanış olmuşdum. Bu gün bir daha əmin oldum ki, matrosların xidməti üçün olduqca yüksək səviyyəli şərait yaradılıb. Bu şəraitə görə Ali Baş Komandana, Müdafiə nazirinə, Hərbi Dəniz Qüvvələrinin Komandanlığına minnətdarlığımızı bildiririk.

Lənkərandan gəlmiş Bağır Bağırov da eyni fikirləri bildirir...

Bu günün ovqatını Qurban Abbasov adına Mədəniyyət Evi nümayəndələrinin musiqi sevinci tamamlayır...

Matrosların xidmət yerlərində, müasir tipli yataqxanalarda valideynlərin baxışlarından məmnunluğu sezmək çətin deyil.

...Ana matrosa gözdolusu baxır:

- Boyuna qurban olum, ay oğul. Maşallah, bu az vaxtda nə qədər dəyişibsən!..

Masallıdan gəlmiş Aybəniz Abbasovadı. Oğlu Əfqanın xidmət yerindən də, sağlamlığından da məmnundu. Bugünkü sevincə görə Müdafiə nazirinə təşəkkürünü də bildirir...



..."Açıq qapı" günü başa çatır. Matroslar xidməti yerlərinə qayıdırlar. Valideynlər inamla, güvənclə, sevgilərlə uzaqlaşmaqda olan bu gənclərə baxırlar...

* * *

Dekabrın 31-də Hava Hücumundan Müdafiə Qüvvələrinə məxsus olan "N" hərbi hissəsində Müdafiə nazirinin tapşırığına əsasən, "Açıq qapı" günü keçirilib. Mingəçevir şəhər ictimaiyyətinin, müharibə veteranlarının, əsgər valideynlərinin və mətbuat işçilərinin qatıldığı tədbir öncə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin ziyarət olunması ilə başlanıb. Abidə önünə tər çiçəklər düzən tədbir iştirakçıları böyük öndərin xatirəsini ehtiramla yad ediblər.

Sonra tədbir hərbi hissədə davam etdirilib. Polkovnik-leytenant İkram Səfərov qonaqları və şəxsi heyəti Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib. Zabit Müdafiə nazirinin tapşırığı ilə hərbi hissələrdə "Açıq qapı" gününün keçirilməsinin ordumuzda artıq dəyərli bir ənənəyə çevrilməsindən danışaraq ordu və cəmiyyət əlaqələrinin formalaşmasında bunun böyük əhəmiyyət kəsb etdiyini qeyd edib.

Əsgər yataqxanasında olan valideynlər və ictimaiyyət nümayəndələri şəxsi heyətin məişəti ilə yaxından tanış olublar və yaradılan yüksək şəraitə görə dövlətimizin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

Hərbi hissənin qarşısında dayanan mühüm döyüş tapşırıqları barədə iştirakçılara məlumat verən cavabdeh zabitlər əsgərlərin yüksək hərbi vərdişlərə yiyələnmələri üçün həyata keçirilən tədbirlərdən, məşğələ və təlimlərdən söhbət açıblar.

Valideynlər və qonaqlar əsgərlərlə birgə bayram süfrəsində nahar etdikdən sonra "Açıq qapı" günü bayramlar münasibətilə təşkil edilən konsert proqramı ilə davam etdirilib.

***Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində keçirilən "Açıq qapı" günündə əməkdaşlarımız əsgər valideynləri ilə görüşərək onların ürək sözlərini qələmə alıblar. Bəzilərini oxucularımıza təqdim edirik.***



**Hümbət Sailov:** Əslən Xankəndidən məcburi köçkünəm. Bərdə rayonunda məskunlaşmışam. Nəvəm Sənan Tofiqoğlu "N" hərbi hissəsində xidmət edir. Qarabağ müharibəsinin bütün ağrı-acısını yaşamışam. Bu müharibənin vurduğu yaralar hələ-hələ sağalmaz. Nankor ermənilər çörəyimizi yeyib bizimlə torpaq davası edirlər. Kaş gördüyümüz silahlar, texnikalar o zaman olaydı. Bir erməni qulduru belə torpağımıza ayaq basa bilməzdi. Şükürlər olsun, bu gün bizim güclü ordumuz var. Müasir hərbi texnikalarla təchiz edilən Silahlı Qüvvələrimizdə peşəkar hərbçilərimiz xidmət edir. Onlar düşmən qüvvələrini bir göz qırpımında məhv etməyə qadirdilər. Sağ olsun, Ali Baş. Komandanımız cənab İlham Əliyev. Orduya böyük diqqət ayırıb. "Açıq qapı" günü tədbirlərində biz bunların bir daha şahidi oluruq. Əsgərin ərzaq, geyim təminatı yüksək səviyyədədir. Ən böyük arzum doğma torpaqlarımıza dönməkdir. İnanıram ki, qüdrətli ordumuzun sayəsində Şuşamızı, Xankəndimizi, Laçınımızı, Ağdamımızı və digər işğaı olunmuş rayonlarımızı erməni daşnaklarından azad edəcəyik.



**Laçın Vəliyeva:** Sumqayıt şəhərindən gəlmişəm. Nəvəm Ceyhun Vəliyev 6 aydır ki, hərbi xidmətdədir. Ali təhsillidir. Birinci "Açıq qapı" günündə də nəvəmi görməyə gəlmişdim, indi də. Sağ olsun Prezidentimiz İlham Əliyev. Allah onun ömrünü uzun eləsin. Onun qayğısı nəticəsində ordumuz günü-gündən güclənir. Əsgərlərimizin şəraitinə baxanda ürəyim açılır. Açığı nəvəm xidmətə başlayanda narahat idim. Gəldim, gördüm, tam arxayın oldum. Yataq yerləri tərtəmizdir, hamam-camaşırxana otaqlarını bir-bir gəzdim. Sağ olsun, Müdafiə nazirimiz. O gələndən orduda böyük dəyişiklik var, inkişaf var. Xalqımız öz ordusuna inanır, övladını tam arxayınlıqla əsgərliyə yola salır. Mənim övladlarım Sovet ordusunda xidmət edib. Onlar ordumuzun bugünkü şəraitini görüb deyirlər ki, heç o zaman rus ordusunda belə şərait yox idi. Yaxşı xidmət etdiyinə görə komandir tərəfindən nəvəmə fəxri fərman verilib və evlərinə təşəkkür məktubu göndərilib.



**Yeganə İsmayılova:** Ağdamdan məcburi köçkünəm. Bakı şəhəri, Yasamal rayonunda məskunlaşmışam. Oğlum Orxan Hüseynov 6 aydır ki, doğma Vətənin keşiyindədir. O, Slavyan Universitetinin məzunudur. Xalası İradə İsmayılova, dayısı İlqar İsmayılovla birlikdə "Açıq qapı" günü tədbirində iştirak etməyə gəlmişik. Birinci "Açıq qapı" günündə iştirak edə bilmədik. Lakin bu barədə verilən informasiyaları yaxından izlədik. Qərara aldıq ki, növbəti "Açıq qapı" günündə mütləq iştirak edək. Belə tədbirlərin keçirilməsi valideynlərə imkan verir ki, hərbi hissənin şəraiti ilə yaxından tanış olsun və şəxsi heyətin hansı məişət şəraitində xidmət etdiyini gözləri ilə görsün. Yeməkxanada xidmət göstərən qadınların necə ürəklə, cürbəcür milli xörəklər hazırladığının şahidi olduq. Yataqxanada müasir istilik sistemi quraşdırılıb. Var olsun, Ali Baş Komandanımız. Bütün bunlar məhz onun diqqətinin sayəsindədir. Gün o gün olsun ki, torpaqlarımız, doğma Ağdamımız düşmən işğalından azad olunsun. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni il bayramlarını Qarabağda qeyd edək.



**Müzəffər Fərəcov:** Beyləqan rayon sakiniyəm. Qardaşım Cavanşir Fərəcov iki müharibənin iştirakçısı olub. O həm Əfqanıstan, həm də Qarabağ müharibəsində iştirak edib. Təəssüflər olsun ki, onu tez itirdik. Cavanşir Füzuli istiqamətində gedən döyüşlərin birində şəhid oldu. Qardaşımla fəxr edirəm. O torpaqlarımızın azadlığı uğrunda canından keçib. Hərbçilərə böyük hörmət və rəğbətim var. Çünki onlar Cavanşir kimi cəsur oğulların şərəfli döyüş yolunu davam etdirərək gecə-gündüz torpaqlarımızın keşiyində dayanırlar. Mən əlamətdar günlərdə, bayramlarda bu hərbi hissəyə gəlib, zabit və əsgərlərlə görüşürəm. Son vaxtlar hərbi hissələrdə aparılan abadlıq və quruculuq işləri bizi çox sevindirir. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuz daim inkişaf edir. İnanıram ki, belə qayğı və diqqət sayəsində ordumuz daha da güclənəcək.



**Rauf İsmayılov:** Bakı şəhəri Nəsimi rayonunda yaşayıram. Qardaşım Şahmalı 6 aydır ki, hərbi xidmətdədir. O, Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Hər iki "Açıq qapı" günü tədbirində iştirak etmişəm. Qardaşımın xidmət keçdiyi hərbi hissə ön xətdə yerləşir. Burada şəxsi heyət üçün yüksək səviyyədə şərait yaradılıb. Mən istəyərdim ki, hər bir əsgər valideyni "Açıq qapı" günü tədbirlərində iştirak edib, övladının hansı şəraitdə xidmət keçdiyinin şahidi olsun. Həmin gün vətəndaşlar üçün geniş imkan yaranır ki, əsgərin ərzaq və geyim nümunələriylə, yataqxana şəraiti ilə tanış olsun, silah və texnikalar barədə ətraflı məlumatları dinləsin. Daha bundan gözəl nə ola bilər ki? Sağ olsun, Ali Baş Komandanımız, orduya bu qədər diqqət ayırır.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Beş yüz nəfər hərbçi ailəsi daimi mənzillə təmin olunub



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında göstərilən diqqət və qayğı nəticəsində ordumuzun inkişafı 2015-ci ildə də yüksələn templə davam edib. Maddi-texniki təchizat güclənib, bir çox sosial-məişət məsələləri həllini tapıb, ən yeni silah və texnikaların alınması, peşəkar kadrların hazırlanması işi davam etdirilib. İl ərzində 1000 nəfərdən çox hərbi qulluqçu xidməti, 500 nəfər hərbçi ailəsi isə daimi mənzillə təmin olunub.



"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına əsasən, hərbi xidmətdə və ehtiyatda olan hərbçi ailələri bu gün, bayramlar ərəfəsində daha bir sevincli xəbər alıb. Müvafiq Komissiyanın qərarına və təsdiq olunan siyahılara əsasən daha 500 nəfərə yaxın hərbçi ailəsi Gəncə şəhərində daimi mənzillə təmin olunub.



Müdafiə nazirinin müavinlərinin, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin birinci müavininin, hərbi qulluqçuların ailə üzvlərinin iştirakı ilə Bakı, Naxçıvan, Bərdə şəhərlərində keçirilən təntənəli mərasimlərdə daimi mənzillərin açarları və sənədləri sahiblərinə təqdim edilib.

Göstərilən diqqət və qayğıya, eyni zamanda bu bayram günlərində bəxş edilən sevincli anlara görə tədbir iştirakçıları ölkə rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan əsgəri adını daşımaqla qürur duyuram

***Fərqli ailələrdə dünyaya göz açsaq da, böyüyüb boya-başa çatdığımız bir Vətənimiz var. Azərbaycan! Hamımızın ortaq anasıdır Vətənimiz. Qoynunda boy atırıq. Bizlərə qucaq açan, elm, təhsil verən, şəxsiyyət kimi yetişdirən anamız. Və biz də bu Vətənə layiqli övladlar olmalı, ölkəmizin adını daim yüksəklərdə tutmalıyıq. Hansı peşədə çalışmağımızdan asılı olmayaraq vəzifəmizin öhdəsindən layiqincə gəlməliyik.***



Bu gün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirib Vətənin keşiyində duran əsgərlərimiz var. Torpaqlarımızın hər qarışını düşməndən azad etmək üçün canından keçməyə hazır olan Vətən oğullarıdır onlar. Vətənə sədaqət andı içməklə başlayırlar xidmətə. Müxtəlif bölgələrə ezamiyyətə gedib Vətənimizə xidmət edən əsgərləri tanıyırıq. Onlarla həmsöhbət olduqca torpaqlarımızın işğaldan azad olunacağı günün yaxın olduğunu hiss edirsən.

Əsgərlərdəki vətənpərvərlik hissi, ruh yüksəkliyi, döyüş əzmi bunun sübutudur. Bu dəfə istiqamət Beyləqan rayonuna oldu. "N" hərbi hissəsinin ön xətdə yerləşən taboruna gəlib çatırıq. Nəzarət-buraxılış məntəqəsindən hərbi hissənin ərazisinə daxil olan andan ətrafdakı əsgərlərin ruh yüksəkliyini hiss edirik. Tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini mayor Səbuhi Quliyevlə posta yollanırıq.

Yolboyu şumlanmış torpaq sahələri bu ərazilərdə əkinçiliyin inkişafından xəbər verirdi. Mayor bizi ön xətdəki şəxsi heyətlə tanış edir. Şəxsi heyətin döyüş hazırlığından, gündəlik fəaliyyətindən danışır. Əsgərlərin xidmətindən razılığını bildirir. Nümunəvi xidmətinə görə yoldaşlarından fərqlənən əsgər Elvin Musayevlə tanış oluruq. O, verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir, vəzifə borcunun məsuliyyətini yaxşı dərk edir, silahına daim qulluq edib saz vəziyyətdə saxlayır. İgidliyi, qorxmazlığı, cəsurluğu ilə fərqlənir. Milli qəhrəmanlarımızın, şəhidlərimizin adına layiq xidmət etməyi özünə borc bilir.

Göygöl rayonundan hərbi xidmətə çağırılan əsgər Musayev 18 aydır ki, xidmətdədir. Vətənpərvər əsgərin hərbi hissə komandiri tərəfindən ötən ay döyüş hazırlığına və nümunəvi xidmətə görə fərqləndiyini və 3-cü dərəcəli döş nişanı ilə təltif olunduğunu öyrənirik.

- Hərbi xidmətə həvəslə gəlmişəm, - deyir əsgər. - Azərbaycan əsgəri adını daşımaqla qürur duyuram. Arzum düşmənləri məhv edib torpaqlarımızı işğaldan azad etməkdir. Savadlı və peşəkar komandirlərimiz bizə döyüş vərdişlərini və silahla davranma qaydalarını öyrədir, bizi əsl döyüşçü kimi yetişdirirlər.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Sarsılmaz birliyi təcəssüm etdirən gün

***Ölkəmizin dünya miqyasında tanınmasının məsuliyyəti bütün azərbaycanlıların çiynindədir. Çox zəngin sərvətləriylə əlverişli hərbi-strateji ərazidə yerləşən Vətənimiz, həmişə dünyanın diqqət mərkəzində olub.***

Vaxtilə işğalçı dövlətlərin Qafqazı azərbaycanlılardan təmizləmək siyasəti nəticəsində milyonlarla soydaşımız dünyanın müxtəlif ölkələrinə səpələnib. Hazırkı məqamda Vətəndən kənarda yaşayan soydaşlarımızın üzərinə daha çox məsuliyyət düşür. Doğma Vətənimizlə bağlı bütün gerçəkliklər ən çox xaricdə yaşayan soydaşlarımızın vasitəsilə dünyaya çatdırılmalı, harada yaşamasından asılı olmayaraq onlar özünü bu torpağın vətəndaşı saymalı, Azərbaycanın haqq səsini beynəlxalq aləmə yaymalıdırlar. Erməni daşnak törəmələrinin çirkin əməlləri və əks təbliğatın nəticəsində dünya ictimaiyyətində yaradılan yanlış təsəvvürləri, ağ yalanları ifşa etmək hər bir Azərbaycan əsilli vətəndaşın birinci vəzifəsi olmalıdır.



Dekabrın 30-da Azərbaycan Hərb Tarixi Müzeyində 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə tədbir keçirilib. Tədbir ənənəvi olaraq ümummilli lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla anılması, Dövlət himninin ifa edilməsindən sonra başlayıb.



Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək gələn qonaqları salamlayıb və hər kəsi bayramlar münasibəti ilə təbrik edib. Ə.Qənizadə "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür" adlı məruzəsində bu günün əsasının 1989-cu il dekabrın sonlarında Naxşıvan Muxtar Respublikasının Ordubad şəhərindən Şəruradək SSRİ-İran adlanan ərazi sərhədlərinin dağılması zamanı qoyulmasından, illər boyu həsrət içində yaşamış həmvətənlərimizin sərhəd dirəklərini aşaraq öz bacı və qardaşlarına qovuşmasından, məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bu günün qeyd edilməsindən və digər məqamlardan bəhs edib. 31 dekabr hadisələrinin xalqımızın yaddaşında dərin iz buraxdığını qeyd edən natiq 1991-ci il dekabrın 16-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda həmin günün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmiləşdirildiyini və sonradan Azərbaycan Respublikası Ali Soveti tərəfindən təsdiqləndiyini diqqətə çatdırdı.

Tədbirdə Müdafiə Nazirliyinin, xüsusi təyinatlı təhsil müəssisələrinin nümayəndələri, müharibə veteranları və digər təşkilatlardan qonaqlar iştirak edib. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş sənədli film nümayiş edilib. Sonda Azərbaycan estradasının tanınmış müğənniləri konsert proqramı ilə çıxış ediblər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissədə bayram şənliyi

***Qədim tarixə malik olan xalqımız artıq neçə illərdir Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü əsrlərdən bəri qorunan adət-ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas amal və duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət taparaq soydaşlarımızın ürəklərində Vətən eşqini, həmrəylik duyğularını gücləndirir.***

Ölkəmizin hər yerində olduğu kimi, Müdafiə Nazirliyinin "N" hərbi hissəsində də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi təntənəli surətdə qeyd olundu. Tədbirdə hərbi hissənin şəxsi heyəti, incəsənət nümayəndələri və zabit-gizirlərin ailə üzvləri iştirak edirdilər.

Öncə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni oxundu.

Tədbiri açıq elan edən polkovnik Qədir Nəsibov iştirakçıları salamlayaraq Azərbaycan xalqının tarixində ən yaddaqalan və əlamətdar günlərdən biri olan 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü haqqında geniş məlumat verdi. O bildirdi ki, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü milli təqvimimizə 24 il əvvəl tarixi bir bayram kimi qəbul edilmişdir. "Bu bayramın özünəməxsus təntənə ilə qeyd edilməsi ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımızın dövlətimizlə əlaqələrinin daha da möhkəmləndirilməsinə və dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin möhkəmlənməsinə zəmin yaradır".

Polkovnik çıxışına davam edərək qeyd etdi ki, ulu öndərimiz Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində formalaşan milli birlik və həmrəylik ideyası möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin uğurlu fəaliyyəti ilə daha da möhkəmləndi, inkişaf etdi. "Prezident İlham Əliyevin rəhbərliyi altında iqtisadi-elmi tərəqqi sahəsində böyük nailiyyətlər qazanan müstəqil Azərbaycanın dövlətçiliyi möhkəmləndirildi, Silahlı Qüvvələrimiz dünyada nüfuz sahibi kimi tanındı. Dövlətimizin və ordu rəhbərliyinin uğurlu fəaliyyəti sayəsində Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti gündən-günə yüksəlir".

Polkovnik sonda tədbir iştirakçılarına möhkəm cansağlığı, uzun ömür, ailə səadəti arzuladı.

Əməkdar artist Çingiz Əhmədovun aparıcılıq etdiyi bayram tədbirində el aşıqları Əhliman, Ağamurad Şirvanlı, əməkdar artistlər Baloğlan Əşrəfov, Elza Qaybalıyeva, Zeynəb Behbudova, xanəndələr Səfər Məmmədov, Həbib Rəhimov, müğənnilər Zahidə Günəş, Mehriban Səfərova, Mənsumə Əliyeva, şairə Cığatel İsaqızı, "Kristal" qrupu və başqaları şən musiqilərlə şəxsi heyətə xoş ovqat aşıladılar. Şaxta baba və Qar qızın gəlişi isə məclisdə xüsusi canlanma yaratdı.



**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***3 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 115 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Mərzili, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 120 dəfə atəş zərbəsi endirib.

***4 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 121 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çaylı, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 125 dəfə atəş zərbəsi endirib.

***5 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 127 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Mərzili, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 130 dəfə atəş zərbəsi endirib.

# "Azərbaycan əsgərinə güvənirik"

***Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü "N" hərbi hissəsində də təntənə ilə qeyd edildi. Həmin gün Füzuli Dövlət Dram Teatrının yaradıcı kollektivi hərbi hissənin qonağı idi.***

Mərasimi teatrın rəhbəri əməkdar incəsənət xadimi Vaqif Vəliyev açaraq zabit və əsgərləri həm Dünya Azərbaycanlıların Həmrəyliyi Günü, həm də Yeni il münasibəti ilə təbrik etdi, onlara gələcək xidmətlərində uğurlar arzuladı. Bildirdi ki, sizlərin ön xətdə göstərdiyiniz igidlik və qəhrəmanlıq bizi çox sevindirir. "Biz sizinlə fəxr edirik, öyünürük. Ordumuzun günü-gündən inkişaf etməsi, güclənməsi sabahkı uğurlarımızdan xəbər verir. Sizin hünərinizi və rəşadətinizi gördükcə torpaqlarımızın geri qaytarılmasına əminliyimiz daha da artır. Biz Azərbaycan Ordusuna inanırıq, biz Azərbaycan əsgərinə güvənirik. Bu gün hamımız üçün əziz bir gündür. Məhz belə bir gündə sizin bayramınızı təbrik etməyə gəldik".

Sonra söz musiqiyə verildi. Teatrın müğənniləri bir-birindən gözəl mahnılar ifa etdilər. Peşəkar aktyorların nümayiş etdirdikləri səhnəciklər zabit və əsgərlərin ürəyincə oldu.

Əsgərlər xoş musiqi sədalarına qol götürüb oynayır, şənlənirdilər.

Tədbirin sonunda polkovnik-leytenant Seymur Həbibullahov çıxış edərək hərbi hissəyə gəldiklərinə və şəxsi heyətin qarşısında maraqlı musiqi proqramı ilə çıxış etdiyinə görə Füzuli Dövlət Dram Teatrının həm rəhbərliyinə, həm də yaradıcı kollektivinə komandanlıq adından minnətdarlıq etdi.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Xarici ölkə ordularında*

# ABŞ-da ideoloji cəhətdən təkmilləşmiş kadrlar hazırlanır

Amerika hərbi rəhbərliyi öz Silahlı Qüvvələrində ideoloji sahədə hərbi qulluqçuların hazırlanmasına böyük diqqət yetirir. Bu məqsədlə xüsusi tədris ocaqları yaradılır. Onlardan biri də ABŞ Silahlı Qüvvələrinin informasiya məktəbi və hərbi ruhanilər məktəbidir. Burada abituriyentlərin əksəriyyəti mülki ali təhsil ocaqlarını bitirənlərdir.

Məktəbdə təhsil alanlar üçün tədris proqramına uyğun psixologiya, sosiologiya, məntiq, idarəetmə, logika, ritorika, etika, hərbi nizamnamələr, silah və hərbi texnikalar üzrə dərslər keçirilir. Başqa fənlərin də tədrisi nəzərdə tutulur. Dinləyicilər hərbi təlimlərdə, yarışlarda iştirak edirlər. Kursun sonunda dinləyici bir mövzu ətrafında yazılı iş təqdim etməlidir. Buna əsasən onun perspektivi müəyyən edilir.

ABŞ Silahlı Qüvvələrinin informasiya məktəbi ictimaiyyətlə və kütləvi informasiya vasitələri ilə əlaqə yaratmaq üçün zabitlər hazırlayır. Məktəb üç fakültədən ibarətdir: ictimaiyyətlə əlaqə, təsviri jurnalistika, radio və televiziya. Onların hər birinə üç kurs daxildir. Əsas fakültə birincisi sayılır. İkinci fakültədə jurnalistlər və fotomüxbirlər hazırlanır. Üçüncü fakültədə isə Müdafiə Nazirliyi tərəfindən radio və televiziyalarda işləmək üçün mütəxəssislər hazırlanır. Tədris zamanı dinləyicilərə jurnalistika sahəsində elektron texnikadan istifadə etmək vərdişləri də aşılanır.

Hərbi keşişlər üzrə mərkəzdə isə ordunun ehtiyacları üçün mülki keşişlər hazırlanır. 5-6 il xidmət etdikdən sonra onlar təkmilləşmə kursuna göndərilir. Bu kursda məzunlar lazımi hərbi komanda vərdişlərinə yiyələnirlər.

Amerikanın hərbi komandanlığı hesab edir ki, ideoloji cəhətdən savadlı mütəxəssislərin hazırlanması Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji tərbiyəsinin müasir səviyyədə təşkilinə imkan verəcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1
Nüsxə 4400